Системный подход к организации регионального развития на государственном уровне позволяет правительству четко определить роль регионов в развитии страны, деятельность в данном направлении приобретает результативный и ответственный характер, а также позволяет региону стать непосредственным участником консолидации и взаимодействия общества, правительства и бизнеса. Поэтому стратегия управления и системный подход в этом направлении, основываясь на устойчивое и динамичное развитие, требует формирования единой социально-экономической системы, которая предусматривает независимость и суверенитет национальной экономики, экономное и рациональное использование природно-экономического потенциала, модернизацию технико-производственной и научно-технической базы, обеспечения интеграции конкурентоспособной и защищенной от разных угроз национальной экономики в мировую хозяйственную систему.

Согласовать интересы представляется весьма проблематичным, а внутри субъекта (носителя интересов) это иногда становится даже невыполнимой задачей. С одной стороны объективные условия функ-

ционирования администрации, с другой такие субъективные факторы, как социально-политическая обстановка в регионе, уровень жизни населения, интересы предпринимателей еще более усугубляет данную проблему. Но достичь компромиссов в реальной жизни сложно и это связано с тем, что внешние и внутренние интересы региона и государства одновременно могут быть разными и подчас противоречивыми. Интересен тот факт, что на сегодня такое расхождение интересов считается нормой. Необходимо также помнить, что из противоречий, как известно, вытекает развитие системы. Но противоречия интересов существуют в разных сферах деятельности. С одной стороны регионы проводя политику центра обеспечивают центр финансами через сбор налогов в государственный бюджет, но с другой стороны получают из центра трансферты для социально-экономического развития. Так выглядеть противоречие между регионом и центром в фискальной политике. Но монетарной политике они в первую пору совпадают, а это происходит когда речь идет о росте доходов, о получении в пользование финансовых ресурсов, например субсидий, и становятся противоположными когда речь идет о доле получаемой суммы, об их возвращении. Поэтому согласование интересов может быть только условным и временным, а если говорить конкретно то лишь по какому-либо критерию. И так можно сделать вывод о том, что групповые экономические интересы не являются постоянными, могут меняться и не совпадать, быть разнонаправленными. Поэтому системный подход к организации регионального развития по обеспечению национальных интересов может проводиться в нижеследующих этапах:

Начальным этапом организации регионального развития является определение конечной цели. Вторым этапом может стать анализ сценарных вариантов или же определение на основе анализа и оценки альтернатив. Следующим и последним этапом системной организации регионального развития является учет концептуального положения, то есть сам процесс разработки, выбора и реализации целей регионального развития и стратегии государства образуют непрерывный процесс и могут меняться вместе с изменением экономической политики страны. Поэтому при организации развития региона как целостной системы рассматриваются взаимосвязанные макроэкономические подсистемы региона, такие как, промышленно-производственная система и инфраструктура, агропромышленные комплексы и социальные сферы, финансовое состояние и районные бюджеты, уровень дотаций из

государственного бюджета, инвестиционная привлекательность, и наконец управленческая сфера, его объем. Находясь на определенно близкой территории, постоянно бывая во взаимосвязи, часто состоя из разнонаправленных, но взаимодействующих и зависящих друг от друга разные фирмы помогают системному и комплексному развитию территории. Кластеры, внутри которой один элемент (фирма, организация, предприятие и т.д.) дополняет деятельность другого, как промышленные группы необходимы для долгосрочного и устойчивого развития регионов Азербайджана. Именно при формировании у нас кластеров для устойчивого развития страны должны больше уделять внимание на применение новых оборудований и технологий, учитывать пространственный аспект (природно-климатические, географические особенности), специфику регионов на счет ресурсов и рассчитать эффективность от их функционирования на долгосрочную перспективу. В первую очередь необходимо формировать нормативно-правовую базу, определить оптимальное местонахождение кластеров с точки зрения национальных интересов и безопасности, а также учитывая интересы самих регионов, их социально-экономическую направленность, специализацию. Оптимальное размещение кластеров обеспечивает одновременно и долгосрочное развитие регионов, и решение национальных социально-экономических проблем, то традиционные отрасли экономики, как машиностроение и сборка, химическая промышленность и др. характерные для Абшеронского, Гянджа-Газахского регионов могут обеспечить формирование кластеров на их территориях. В городах Баку, Сумгаит и Гянджа, отличающихся высоким развитием машиностроения, энергетической и химической промышленности, инфраструктурой, развитым рынком сбыта, научно-образовательной системой, высоким кадровым потенциалом, формирование кластеров будет намного легче, чем в других регионах. Но интересами страны являются обеспечение равностороннего развития регионов и потому формирование кластеров не только в данных городах, но во всех регионах страны может обеспечить реализацию данной задачи. Мощные компании, составляя ядро кластера, собирают вокруг себя множество себе подобных малых и средних компаний, тем самым сохраняют конкуренцию на определенной территории. Проанализировав многие научные подходы и предложения отечественных и зарубежных ученых-экономистов мы пришли к выводу, что учитывая опыт многих стран на территории Азербайджана необходимо форми-

рование «мегакластеров» в состав которых будут входить основные фирмы: по машиностроению и (или) сборки оборудований и техник, в химической и энергетической промышленности, по агропромышленному комплексу, сельскому хозяйству, строительно-конструкторскому сектору, транспортной отрасли, по туризму и здравоохранению, по коммерческим и банковским услугам, по инновациям и массовым информационным средствам. Но принципиальные основы формирования кластеров и их влияние на конкурентоспособность региона подтверждают необходимость базового потенциала самого региона.

Необходимо учитывать и тот факт, что инновационная деятельность в регионе может быть эффективно реализовано с помощью создания инновационно активных территорий, через региональные центры продвижения инноваций, и наконец, посредством региональных научно-производственных объединений. Проделанные в данных направлениях мероприятия уже дают свои плоды. Так созданный технопарк в городе Сумгаите, научно-производственные объединения в таких городах как Гянджа, Мингечаур, Нахчыван в рамках программ регионального развития являются положительными примерами. Создание технопарков, технополисов и наукоградов как подвидов такой организационной формы, как инновационно-активные регионы могут способствовать исследованиям, разработкам, серийному производству наукоемкой продукции с использованием высших технологий и в дальнейшем способствовать их тиражированию и распространению по всей территории страны. Как показывают исследования и анализ экономической литературы в данном направлении, технополиси созданные для производства новой прогрессивной продукции или для разработки новой наукоемких технологий отличаясь от технопарков, являются научно-производственными комплексами с развитой инфраструктурой сферы обслуживания. Именно последняя (сфера обслуживания), являясь актуальной на территориях, при реализации сталкивается с проблемой нехватки профессиональных кадров. Поэтому создание региональных центров и структур продвижения инноваций, как организационная форма инновационной деятельности в регионе, должно стать вторым шагом в реализации стратегии инновационного прорыва регионов. Как видим за последние годы роль инноваций в обществе хоть и растет, все же имеются и препятствия развитию инноваций регионов. Это:

–высокая стоимость инноваций и нововведений, высокий риск их

окупаемости, неопределенность сроков экологических и экономических процессов после их применения;

– недостаток финансирования или из-за высокого риска низкая активность финансирования определенных инновационных проектов;

– отсутствие или недостаток нормативно-правовой базы, несовершенство стимулирующих, регламентирующих документов, отсутствие гибкости и скорости в усовершенствовании правовой базы к меняющимся условиям в инновационных сферах;

– нехватка информации и как его результат, не учет внешних эффектов и рисков;

– невосприимчивость, связанная с менталитетом и стереотипами, консервативностью с одной стороны, недопониманием эффекта, осторожностью и финансовой недостачей с другой стороны;

– отсутствие развитой рыночной, сервисной инфраструктуры, способов продвижения товаров, технико-внедренческих зон.

Необходимость устранение данных факторов и приспособление регионов к инновационному развитию является приоритетом на ближайшие несколько лет. Поэтому необходимо разработать конкретные модели инновационного развития по каждому экономическому региону. Эта модель должна отражать стратегические планы и форсайты (они в отличие от долгосрочных прогнозов имеют более четкие ориентир) инновационного развития региона, механизмы совершенствования инновационной деятельности, модернизацию как экономической, так и институциональной структуры региона, эффективность использования научно-технического и экономического потенциала, наконец, отражать изменения структуры национального богатства – показать повышение роли человеческого капитала. Основное содержание диссертации опубликовано в следующих работах:

1. Regionun sabit sosial-iqtisadi inkişafının optimal modeli / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. “Azərbaycan Respublikasının İqtisadi Siyasəti: Nailiyyətlər və perspektivlər” mövzusunda keçirilmiş elmi-praktik konfransın materialları. Bakı, 2012, s. 339-342.

2. Yeni minilliyin obyektiv tələbi kimi sabit inkişafının konseptuallaşması / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. “Qloballaşma Mühitində İqtisadi Təhlükəsizliyin Təmin Olunmasında

Gömrük Tənzimlənməsinin Rolu” mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2012, s. 560-568.

3. Ərazilərin inkişaf prinsipləri və regional siyasətin məqsədləri // Bakı Universitetinin Xəbərləri. Sosial-Siyasi Elmlər Seriyası, 2013, №1, s. 60-68.

4. Milli iqtisadi maraqların reallaşdırılması strategiyasında regionların sosial-iqtisadi inkişafı / Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi. Əmək və Sosial Problemlər Elmi Əsərlər Toplusu. Bakı, 2013, №1(12), s. 126-132.

5. Region – milli iqtisadi sistemin elementi kimi // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi Əsərlər Toplusu, 2013, №2, s. 208-214.

6. İqtisadi inkişaf mexanizmində regional prioritetlər milli iqtisadi maraqların reallaşdırılması kimi // Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri, “Elmi-nəzəri jurnal”, Bakı, 2013, №1, s. 120-124.

7. Роль программно-целевых методов управления в реализации потенциала регионов Азербайджана // Научная мысль Кавказа. Научный и общественно-теоретический журнал. Северо-кавказский научный центр высшей школы Южного федерального университета, Ростов-на-Дону, 2013, №3(75), s. 72-77.

8. Организация регионального развития с учетом национальных интересов // Вестник Экономической Интеграции. Научно-Практический Журнал. Москва, 2013, №11(68), s. 99-103.

9. Кластеризация как перспективное направление развития регионов // Инвестиции. Науково-практический журнал, Украина, 2014, №1, s. 104-107.

10. Инновационное развитие регионов в контексте структурной модернизации национальной экономики / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. “Geoiqtisadiyyat və Geosiyasətin Qarşılıqlı Təsiri” mövzusunda respublika səviyyəli elmi-praktiki konfransın materialları. Bakı, 2014, s. 12-16.

11. Target Program Methods of Regulating Regional Development in order to Ensure Sustainable Development of the Country / Научная дискуссия: Вопросы Экономики и управления. Сборник статей по материалам XXVI международной заочной научно-практической конфе-

ренции. Москва, 2014, №5(26), s. 160-163.

12. Региональное воспроизводственное обобществление в контексте общенационального экономического развития Азербайджана // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi-analitik və praktiki jurnalı. Bakı, 2014, №4(40), s. 441-450.

**Nəcibə Qabil qızı Hacıyeva**

# AZƏRBAYCANDA REGİONAL İNKİŞAF VƏ MİLLİ İQTİSADİ MƏNAFELƏRİN REALLAŞDIRILMASI

## Xülasə


Dissertasiya işi giriş, üç fəsil, altı paraqraf, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti müfəssəl verilmişdir.

Dissertasiya işinin "Regional inkişafın tədqiq olunmasının nəzəri-metodoloji əsasları" adlanmaqla burada ərazi inkişafın prinsipləri və regional siyasətin məqsədlərinə baxılmış, milli iqtisadi sistemin elementi kimi regionun rolu öyrənilmiş, milli iqtisadi maraqların reallaşması mexanizmində regional prioritetlər tədqiq olunmuşdur.

İşin "Azərbaycan regionlarının müasir şəraitdə inkişaf potensialı" adlanan ikinci fəslində, ölkənin davamlı inkişafını təmin etmək üçün regionların potensialının proqram məqsəd metodlarla reallaşmasına baxılır, Azərbaycanın ümummilli iqtisadi inkişaf kontekstində regional təkrar istehsal ictimailəşməsi tədqiq olunur və milli iqtisadi maraqların reallaşması nöqteyi-nəzərindən regionların sosial iqtisadi inkişafı təhlil edilir.

Tədqiqat işinin üçüncü fəsli "Azərbaycan iqtisadiyyatının regional inkişafına əsas istiqamətləri və perspektivləri" adlanır. Bu fəsildə milli maraqların təyini üzrə regional inkişafın təşkil edilməsinə sistemli yanaşılmış, regionlardan təsərrüfat klasterlərinin inkişafının perspektiv istiqamətləri müəyyən edilmiş və milli iqtisadiyyatın struktur modernləşdirilməsi kontekstində regionların innovativ inkişafına baxılmışdır.

Bütün yuxarıda deyilənlərə əsaslanaraq, müəllif tərəfindən dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, müəyyən elmi və nəzəri əhəmiyyəti olan təklif və tövsiyələr irəli sürülmüşdür.

**Nadjiba Qabil kizi Hajiyeva**

## REGIONAL DEVELOPMENT IN AZERBAIJAN AND REALIZATION OF NATIONAL ECONOMIC INTERESTS

### Summary

This thesis consists from introduction, three heads, conclusions and offers, the list of the used literature.

In the introduction the actuality of the topic of the dissertation is based, the degree of studied of problem is characterized, a purpose and tasks is put, the scientific of research open up, practical mean full is shown.

First chapter, which is called the "Theoretical and methodological foundations of the regional development study" describes the principles of territorial development and regional policy, studies the region's role as part of the national economic system, and applies regional priorities in the mechanism of the national economic interests' realization.

The second chapter – "The development potential of the Azerbaijan regions in modern circumstances" portrays researched issues of goal-oriented methods of the regions' potentials realization to ensure sustainable development of the country, applies regional reproductive socialization in the context of the Azerbaijan national economic development and analyzes the socio-economic development of regions in terms of the realization of national economic interests.

The third chapter of the research – "Main directions and prospects of the regional development of the Azerbaijan economy" systematically approaches to the organization of regional development to define national interests, determines perspective directions of the regional economic clusters' development and considers an innovative development of the regions in the context of the structural modernization of the national economy.

Based on the above, in a final part of work the author of the thesis the research results can be summarized in the by conclusions and offers were put forward in scientific and theoretical importance received as a result of the conducted research are given.

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

***Əlyazması hüququnda***

**NƏCİBƏ QABİL QIZI HACIYEVA**

# AZƏRBAYCANDA REGİONAL İNKİŞAF VƏ MİLLİ İQTİSADİ MƏNAFELƏRİN REALLAŞDIRILMASI

**İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Hacıağa Baxış oğlu Rüstəmbəyov,**
iqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Gəncəli Əziz oğlu Gənciyev**
Iqtisad üzrə elmlər doktoru, professor

**Emin Adil oğlu Qəribli**
İqtisad üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Dövlət tənzimlənməsi və marketinq xidmətinin təşkili" şöbəsi

Müdafiə 07 noyabr 2015-ci il tarixdə saat ___-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" oktyabr 2015-ci ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A.ŞIXƏLİYEV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** XXI əsrin birinci onilliyi qloballaşma proseslərinə, innovasiyalara və milli maraqlara istiqamətlənən yeni təsərrüfat sistemlərinin yaranma dövrü kimi bəşəriyyətin yaddaşında qalacaq. Tarixi və təbii şərtlərə, davamlı inkişafın tələblərinə cavab verən və müasir dünyada ölkənin geosiyasi mövqeyini nəzərə alan milli maraqlar yerli innovativ-iqtisadi sistemlərin formalaşmasına olan yanaşma tərzinə yenidən baxılmanı tələb edir. İqtisadi, sosial və ekoloji meyarlar arasında optimal balansı bərpa etməklə, institusional qərarlar vasitəsilə sahə və regionlararası disproporsiyaları aradan qaldırmaqla ölkənin hərtərəfli inkişafına nail olmaq olar. Makroiqtisadi siyasət və maliyyə sabitləşməsi üzrə həyata keçirilən tədbirlər, iqtisadiyyatın liberallaşması, dövlət əmlakının özəlləşdirilməsi ilə paralel aparılan əhalinin gəlirlərinin artırılması Azərbaycanda müstəqilliyin ilk illərində regional səviyyədə mədsədyönlü mexanizmlərlə əhatə olunmamışdı. Real sektorun fəaliyyət səmərəliliyini artırmadan regionların iqtisadiyyatının dəyişən şəraitə uyğunlaşmasına yönələn tədbirlər iqtisadiyyatın qeyri-neft sektorunda yüksək həcmli istehsal artımına və milli rəqabətqabiliyyətli məhsulun istehsalında səmərəliliyin yüksəldilməsinə nail olma kimi vəzifələri reallaşdıra bilmədi. Lakin 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üçün qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramları, regionların iqtisadiyyatının tənzimlənməsi üçün uyğun normativ-hüquqi aktlar paketinin işlənib hazırlanması ölkənin sosial-iqtisadi inkişaf paradiqmasının dəyişməsindən xəbər verir. İslahatların bu mərhələsinin əvvəlkilərdən fundamental fərqi regionların milli maraqların həyata keçirilməsində rolunun artırılmasında və onlara milli iqtisadi sistemin əsas elementi kimi yanaşmadadır. Maddi istehsal sferasının struktur yenidən qurulması, keyfiyyətcə yeni maddi-texniki və texnoloji bazanın formalaşdırılması, qeyri neft sektoruna strateji, birbaşa və dövlət investisiyalarının artırılması, əhalinin həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsi davamlı inkişafa keçid zamanı milli maraqların təmin edilməsində əsas amil kimi nəzərdən keçirilir. Lakin bu vəzifənin həlli üzrə nəzəri yanaşma və praktiki məsləhətlər Azərbaycanın bütün iqtisadi rayonları üçün eynilik təşkil etmir. Bir-birindən maliyyə-investisiya, təbii resurs, maddi-texniki, infrastruktur, innovasiya və kadr potensialına görə fərqlənən regionlar ölkənin maraqlarının reallaşdırılmasında regionların rolunun detallı öyrənilməsini və inkişafın daha təkmil paradiqmasının qəbul

edilməsini tələb edir.

**Problemin öyrənilmə səviyyəsi**. Milli iqtisadi maraqların reallaşması üçün regional inkişaf problemlərinin tədqiqinin əsasında regional inkişaf üzrə müxtəlif alimlərin nəzəri və metodoloji yanaşmaları istifadə olunmuşdur. Regionların inkişafı problemlərinin tədqiqi zamanı regional təkrar istehsal, regional əmək bölgüsü, «artım qütbləri», iqtisadi özək, innovasiyaların ərazi diffuziyası, həyat dövrü, regionların uyğunlaşması və digər nəzəriyyələri müqayisə və əlaqəli şəkildə istifadə etməklə bizim tərəfimizdən regionların problemlərinə müasir alimlərin yanaşmaları da öyrənilmişdir. Tərəfimizdən aparılan regional inkişafla bağlı tədqiqat əsasən C.M.Keynsin, L.Samuelsonun, S.Denissonun, M.Enrixin, M.Porterin, Q.Qordonun, M.Stopperin, Q.Xorvazın və başqalarının elmi əsərlərinə əsaslanır.

Milli iqtisadi maraqların reallaşması prioritetlərinə, innovasion inkişafa doğru irəliləmə şəraitində regional inkişaf problemləri L.İ.Abalkin, L.Q.Axtariyeva, T.V.Qrisyuk, A.Q.Qranberq, A.V.Zolotuxina, V.V.Kotilko, R.V.Kryukov, R.Q.Mannapov, Q.Q.Fetisov, V.P.Oreşin, K.N.Yusupov və digərlərinin tədqiqatlarında öz əksini tapmışdır. Milli regional iqtisadiyyat problemlərinin müxtəlif həll aspektləri, onların struktur yenidənqurulması və davamlı inkişafa keçidi A.A.Nadirov, A.Həsənov, A.Q.Nuriyev, A.Q.Əlirzayev, Ç.M.Abbasov, N.Q.Qurbanov, A.M.Məhərrəmov, M.M.Mahmudov, H.B.Rüstəmbətov, İ.M.Rzayev və digər yerli alimlər tərəfindən araşdırılıb.

Lakin regionların sosial-iqtisadi inkişaf problemlərinin tədqiqi ilə bağlı elmi məqalə, monoqrafiya və digər nəşrlərin sayının çox olmasına baxmayaraq regionların iqtisadiyyatının inkişafı vasitəsilə milli maraqlara nail olmanın optimal yolunun seçilməsi problemi, daxili və xarici amillərin kompleks şəkildə nəzərə alınması əsasında davamlı inkişafa keçid hələ ki, tam həllini tapmamışdır. Ona görə də milli maraqların reallaşmasında regionların, xüsusilə də Azərbaycanın konkret iqtisadi regionlarının iştirak probleminin daha dərin təhlil edilməsi elmi-nəzəri və praktiki nöqteyi-nəzərdən vacibdir və aktualdır.

**Tədqiqatın obyektini** Azərbaycan regionlarının iqtisadiyyatı, həmçinin ölkənin iqtisadiyyatının ümummilli regional tamlığını formalaşdıran müxtəlif strukturlar, təsərrüfat subyektləri və institusional yaranışlardır.

**Tədqiqatın predmetini** milli və regional iqtisadiyyatların maraqlarının qarşılıqlı əlaqəsi, regionların sosial-iqtisadi inkişafı vasitəsilə milli iqtisadiyyatın davamlı inkişafa keçid, həmçinin bu prosesin reallaşması

mexanizmi və istiqamətləri, əsas prioritetləridir.

**Dissertasiya işinin məqsədi**. Milli maraqların reallaşması və sabit makroiqtisadi inkişafın təmin edilməsi üçün regionların iqtisadiyyatının strukturunun yenidən dəyişdirilməsi üzrə praktiki təkliflərin verilməsi və elmi-metodoloji əsaslarının işlənib hazırlanması tədqiqatın məqsədidir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

1.Regionların inkişafının konseptual əsaslarının işlənib hazırlanması, əsasında:

–regionların sosial-iqtisadi inkişafının nəzəri-metodoloji məzmununun, ərazi inkişaf prinsiplərinin və regional siyasətin məqsədlərinin açıqlanması;

–regiona milli iqtisadi sistemin elementi kimi yanaşaraq milli iqtisadi maraqların reallaşması zamanı regional prioritetlərlə iqtisadi inkişaf mexanizminin qarşılıqlı əlaqəsini əsaslandırmaq.

2.Ölkənin iqtisadi sabitliyi və artımı əsasında Azərbaycanın müasir regional siyasətini əsaslandırmaq, xüsusilə də:

–Azərbaycanın regionlarının inkişaf vəziyyətinin və regionların potensialının üzə çıxarılmasında proqram-məqsəd metodun istifadəsinin təhlil edilməsi;

–«mərkəz-region» qarşılıqlı əlaqənin regional inkişafın yeni paradiqması çərçivəsində və regional təkrar istehsalın Azərbaycanın ümummilli iqtisadi inkişafı kontekstində tədqiq edilməsi.

3.Milli iqtisadi maraqların reallaşmasında regionla mərkəzin uzunmüddətli qarşılıqlı münasibətlərinin reallaşması üzrə təkliflərin əsaslandırılması, regionların inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, əsasən də:

–milli maraqların təmini üzrə regional inkişafın təşkil olunmasına sistemli yanaşmanın işlənib hazırlanması;

–regionların iqtisadiyyatının strukturunun modernləşməsi, innovativ inkişafı və təsərrüfat klasterlərinin inkişafının perspektiv istiqamətləri üzrə təkliflərin verilməsi.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Tədqiqat işində regional inkişafın kompleks aparılması və bu prosesin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini əsaslandıran müəlliflərin əsərlərindən istifadə olunmuşdur. Dissertasiyada regional səviyyədə iqtisadi artımı əks etdirən və neoklassik sintezə əsaslanan müasir nəzəriyyələrin (A.S.Epşteyn, V.Knyaqinin) müddəalarından da istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası

iqtisadiyyat və Sənaye Nazirliyinin, Dövlət Statistika Komitəsinin və digər elmi təşkilat və idarələrin materialları və proqnozları, 2004-2008, 2009-2013-cü illərdə həyata keçirilmiş regionların sosial-iqtisadi inkişaf proqramlarının reallaşmasının nəticələri və 2014-2018-ci illər üçün qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramının materialları istifadə edilmişdir.

**Tədqiqatın işinin elmi yeniliyi**. Dissertasiyada elmi yenilik təşkil edən aşağıdakı tədqiqatlar verilir:

– «region» termini açıqlanmış və regional inkişafın yeni paradiqması kontekstində «mərkəz-region» qarşılıqlı əlaqəsi tədqiq edilmiş, paradiqmaların qarşılıqlı əlaqəsi əsaslandırılmış, regionların seçilməsi meyarlarına baxılmış və hazırkı iqtisadi vəziyyət meyarlarına əsasən Azərbaycan regionlarının bölgüsü əsaslandırılmışdır;

– müasir şəraitdə ərazi inkişaf prinsipləri müəyyən edilmiş, inzibati-idarəetmə məqsədləri, o cümlədən iqtisadi, sosial, ekoloji, institusional və millətlərarası münasibət məqsədləri əsasında uzunmüddətli regional inkişafın "məqsədlər ağacı" təklif edilmişdir;

– dörd əsas mərhələ üzrə (1991-1995, 1996-2000, 2001-2008 və 2009-cu ildən indiyə qədərki dövr) regionların vəziyyətinin təhlil edilməsi əsasında Azərbaycan regionlarının iqtisadi artımının idarə edilməsinin təşkilati-iqtisadi mexanizmi işlənib hazırlanmış və regionların idarə edilməsinin metodları tədqiq edilmişdir;

– regionların potensialının açılması üçün proqram-məqsəd metodunun reallaşması dərəcəsi öyrənilmiş, regionların əsas sosial-iqtisadi problemləri üzə çıxarılmış və Azərbaycanın Naxçıvan, Lənkəran, Gəncə-Qazax, Abşeron kimi iqtisadi rayonlarında təsərrüfat klasterlərinin inkişaf perspektivləri istiqamətləri üzrə təkliflər hazırlanmışdır.

**İşin təcrübi əhəmiyyəti**. Dissertasiya işinin nəticələri həm nəzəri, həm də praktiki əhəmiyyət kəsb edərək təhsil və tədqiqatlarda, məqsədli regional proqramların hazırlanmasında, regionların iqtisadiyyatının innovativ-struktur yenidən qurulmasında istifadə oluna bilər. Müəllif tərəfindən irəli sürülən işlənərək hazırlanmış və konkret tədbirlər sisteminə gətirilmiş təkliflərin həyata keçirilməsi regionların sosial-iqtisadi inkişaf prosesini sürətləndirə bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi**. Dissertasiyanın əsas müddəaları və işdə irəli sürülən nəzəri və əməli təkliflər haqqında:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti.

“Azərbaycan Respublikasının İqtisadi Siyasəti: nailiyyətlər və perspektivlər” mövzusunda keçirilmiş elmi-praktik konfransın materialları (Bakı, 2012);

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. “Qloballaşma Mühitində İqtisadi Təhlükəsizliyin Təmin Olunmasında Gömrük Tənzimlənməsinin Rolu” mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları (Bakı, 2012);

3. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. «Geoiqtisadiyyat və Geosiyasətin Qarşılıqlı Təsiri» Mövzusunda Respublika Səviyyəli Elmi-Praktiki Konfransın Materialları (Bakı, 2014);

4. Научная дискуссия: Вопросы Экономики и управления. Сборник статей по материалам XXVI международной заочной научно-практической конференции (Москва, №5(26)/2014) respublika və beynəlxalq elmi-praktiki konfranslarda və seminarlarda məruzə edilmişdir. Dissertasiya işinin nəticələri istifadə edilmək üçün təklif və tövsiyələr şəklində İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda təqdim edilmiş və tətbiq üçün qəbul edilmişdir (arayış №33/33-7/06, 21 sentyabr 2015-ci il).

Bununla yanaşı tədqiqatın nəticələri nüfuzlu dövri nəşrlərdə və jurnallarda dərc edilmiş 4 konfrans materialı və 8 məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, 9 yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. 18 cədvəl, 4 sxem və 2 əlavələr də daxil olmaqla dissertasiyanın ümumi həcmi 141 səhifəni əhatə edir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası göstərilir, habelə işin elmi yenilikləri, təcrübi əhəmiyyəti, aprobasiyası və tətbiqi şərh edilir.

**"Regional inkişafın tədqiq olunmasının nəzəri-metodoloji əsasları"** adlanan birinci fəsildə ərazi inkişafın prinsipləri və regional siyasətin məqsədlərinə baxılmış, milli iqtisadi sistemin elementi kimi regionun rolu öyrənilmiş, milli iqtisadi maraqların reallaşması mexanizmində regional prioritetlər tədqiq olunmuşdur.

Qloballaşma prosesinin gücləndirildiyi şəraitdə müxtəlif ölkələrin maraqlarının uzlaşdırılması və müqayisə edilməsi baş verdiyi bir vaxtda nəzəriyyəçi alimlər və siyasətçilər, dövlət məmurları islahatlarda bu və ya digər addımın nə qədər vacib olduğunu müəyyən etməyə çalışırlar. Azərbaycanın öz maraqlarının təmin edilməsində əsas prioritetlərdən biri həm iqtisadi, həm də sosial sahədə davamlı inkişafa nail olmaqdır. Bu prosesdə əsas rollardan biri Azərbaycanın subyektlərinə, yəni iqtisadi regionlara verilir. Bununla yanaşı regionların sosial-iqtisadi inkişafına yeni tələblər qoyulur ki, bu da regional nəzəriyyənin prinsipial olaraq yeni əsaslarının axtarılmasını zəruri edir. Lakin "tədqiq olunan halların əvvəlki determinist təsvirindən fərqli olaraq yeni nəzəriyyələrdə yerləşdirmə prosesinin iştirakçılarının risk və qeyri-müəyyənlik şəraitində davranışı təhlil edilir və proqnozlaşdırılır".[1] Dövlətin qarşısında duran əsas problemlərdən biri regional disproporsiyaların ölkə üzrə aradan qaldırılmasıdır.

Bazar əsasında Azərbaycan iqtisadiyyatının inkişafı ilə regionun daxili elementləri arasında əlaqələrin mahiyyəti və gücü dəyişir. Zamanla regionların arasında olan, digər regionların iqtisadiyyatı, dünya bazarları və mərkəzi sistemlə yaranan qarşılıqlı əlaqədə dəyişir. Əlaqələrin keyfiyyəti dəyişir onların güclənməsi və yaxud zəiflənməsi hiss olunur. Bu dəyişikliklərin dərəcəsini müəyyən etmək üçün regionların iqtisadiyyatının dövlət idarə edilməsi və ərazi inkişafının idarə edilməsi arasında fərqin təyin edilməsi vacibdir. "Çox vaxt iqtisadiyyatın dövlət idarə edilməsi və iqtisadi inkişafın dövlət idarə edilməsi arasında prinsipial fərq hiss edilmir.

---

[1]Фетисов Г.Г., Орешин В.П. Региональная экономика и управление: Учебник. М.: ИНФРА-М, 2006, стр. 20.

Birinci yalnız dövlətə inzibati təhkim olunan subyektlərə münasibətdə mümkündür. İkinci isə bazar iqtisadiyyatına xas olub bir tərəfdən iqtisadi inkişafın ictimai məqsədlərinə nail olmağa digər tərəfdən müstəqil təsərrüfat qərarlarının qəbul edilməsinə – motivasiyalandırılmasına dəlalət edən təsərrüfat şərtlərinin dövlət tərəfindən təyin olunmasından ibarətdir”.[2] Ona görə də dövlətin regionun roluna münasibəti onun gələcək inkişaf istiqamətini formalaşdırır. Ölkədə baş verən iqtisadi-institusional dəyişikliklər və dünya iqtisadi sistemində geosiyasi proseslər fonunda ölkənin regionları rəqabət mübarizəsinin iştirakçılarına çevrilir. Bu zaman həm milli, həm də beynəlxalq arenada daha çox təsərrüfat müstəqilliyi əldə edən regionlar öz inkişaf strategiyasını seçirlər. Lakin regionların müstəqilliyinin artmasına baxmayaraq regional inkişafın müasir strategiyası dünya iqtisadi sistemi və milli iqtisadiyyatın bir sıra qarşılıqlı fəaliyyət tələblərini nəzərə almalıdır. Əgər «əvvəlki nəzəriyyələr istehsalçı, satıcı və istehlakçıların şəxsi maraqlarına (qərb iqtisadi məktəbi) ya da dövlətin maraqlarına (sovet iqtisadi məktəbi) istiqamətlənirdisə indiki müasir nəzəriyyələr fərdi, qrup (korporativ, regional) və dövlət maraqlarını yerləşdirilməsi qanunauyğunluqlarını izah edirlər»[3]. Müasir şəraitdə regional siyasətin formalaşması və ərazi inkişafının təmizlənməsi zamanı əsas qanunauyğunluqlara aşağıdakılar aid edilir:

1. Milli iqtisadiyyata rəqabət qabiliyyətinin artırılması üçün istehsalın rasional yerləşdirilməsi;
2. Milli iqtisadi təhlükəsizliyin təyin edilməsi üçün bütün regionların təsərrüfatlarının kompleks inkişaf etdirilməsi;
3. Məşğulluq probleminin həlli üçün rasional ərazi əmək bölgüsünün aparılması;
4. Regionların iqtisadi və sosial inkişaf səviyyələrinin bərabərləşdirilməsi, yəni ərazi disproporsiyalarının aradan qaldırılması.

Regionların sosial iqtisadi artımının təyin olunması təxirə salınmaz problemlərdən biridir. “Suveren ölkənin davamlı inkişafı üçün regionların müxtəlif imkanlarının geniş istifadə olunması bu vəzifənin reallaşmasının

---

[2]Экономическая доктрина Российской Федерации (макет-проект) / Монография под ред. Сулакшина С.С.М.: Научный эксперт, 2008, 360 с.

[3]Фетисов Г.Г., Орешин В.П. Региональная экономика и управление: Учебник. М.: ИНФРА-М, 2006, стр. 25.

şərtlərindən biridir".[4] 2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən regional sosial iqtisadi inkişafla bağlı qəbul edilmiş 3 dövlət əhəmiyyətli kompleks proqramlar bu yanaşmanın düzgünlüyünü təsdiq edir və bu istiqamətdə əsas addımlardandır. Həmçinin qeyd etmək lazımdır ki, 2009-cu ildə bir sıra normativ sənədlər yeniləri ilə əvəz olunmuşdur ki, onlarda da ayrı-ayrı regionların daha detallı və konkret vəzifələr göstərilmişdir. Bu regionların sosial iqtisadi vəzifəsinin dəyişməsi regional inkişafa tələbin artması ilə izah olunur. İqtisadi inkişafın uzunmüddətli prioritetləri milli iqtisadiyyatı proqnozlaşdırılmayan iqtisadi fəaliyyətin kəskin dəyişən şərtlərinə hazır olmasına təmin etməli, təkrar istehsal olunan resurs-biliyə əsaslanan milli iqtisadiyyatın innovativ modelini formalaşdırmalıdır. Yuxarıda qeyd olunan prioritetlərin reallaşması zamanı regional iqtisadi siyasətinin ali dəyərlərinə aşağıdakılar aid edilir:

1. Sosial humanizm və ədalətliliyin təmini;
2. Sabit iqtisadi artıma və balanslaşdırılmış iqtisadi inkişafa nail olma;
3. Azərbaycanın milli təhlükəsizliyinin təmini və saxlanılması.

Bütün bu iqtisadi inkişaf prioritetlərini regional siyasətin reallaşması dövrləri üzrə bölərək yerləşdirmək lazımdır. Ona görə də, hesab edilir ki, regional iqtisadi siyasətin dəyərlərindən irəli gələrək ən iri inzibati idarəetmə məqsədləri aşağıdakılardır:

1. Məqsədli və təhlil edilən əsas göstəricilər siyahısına demoqrafik, sosial, milli və regional təhlükəsizlik göstəricilərinin də daxil edilməsi
2. Milli iqtisadiyyatın xammala istiqamətlənməsinin və monitor disproporsiyalarının aradan qaldırılması;
3. İqtisadi inkişafın intellektual resurslarının (bərpa olunan) keçid;
4. Milli eyni zamanda regional iqtisadiyyatın açıqlıq dərəcəsinin optimallaşdırılması;
5. Regional iqtisadi idarəetmə alətlərinin artırılması və təkmilləşdirilməsi.

Göstərilən məqsədlərin nəzərə alınması və reallaşdırılması, həmçinin regional inkişafın «məqsədlər ağacının» formalaşdırılması milli maraqların minimal itkilərlə və daha səmərəli əsasda həyata keçirilməsini təmin edirlər. Dövlət regionun xüsusiyyətini, ümumiqtisadi inkişafın müəyyən mərhələsində onun inkişaf vəziyyətin nəzərə almaqla ümumi və xüsusi

[4]Nadirov A. Müstəqillik regionların tarazlı sosial-iqtisadi inkişafının əsas yoludur / Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri mövzusunda Respublika Elmi-praktiki konfransın materialları, Bakı, 2010.

məqsədləri formalaşdırır. Bu zaman məqsədlərin sistemliliyi prioritetliyi nəzərə alınır və buna uyğun olaraq onlar qruplaşdırılırlar. Lakin biz hesab edirik ki, bu gün davamlı inkişaf tipinə keçidlə əlaqədar bu məqsədlər sırasına institusional inkişaf məqsədləri də daxil etmək lazımdır. Azərbaycan həmişə onun ərazisində yaşayan müxtəlif millətlərin maraqların nəzərə alan çoxmillətli ölkə olmuşdur. Buna baxmayaraq ölkəmiz 20 ildən artıqdır ki, Dağlıq Qarabağla bağlı süni yaradılmış millətlərarası problemi həll etməyə çalışır. Ona görə də əsas məqsədlərdən biri kimi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, ölkənin bütün regionlarını ümumi təsərrüfat inkişafı prosesinə qatılması, sosial iqtisadi proqres istiqamətində milli ictimai irəliləməni nəzərdə tutur. Bütün bu məqsəd qoyuluşları regionların inkişafına xidmət etməklə son nəticədə bütün ölkənin inkişafına gətirib çıxarır.

Qloballaşma prosesinin sürətləndiyi və Azərbaycanın dünya birliyinə inteqrasiyasının aktivləşdiyi bir şəraitdə ölkə regionları həm iqtisadi həm də inzibati idarəetmə qərarlarında fəaliyyət sərbəstliyini əldə etməyə çalışırlar. Lakin «regionların nisbətən xüsusiləşmiş amma təkrar istehsal tamlığının xüsusiyyətlərinə malik olmayan kimi təhlil edilməsi unitar və böyük ölçüsü olmayan ölkə iqtisadiyyatları üçün xarakterikdir»[5]. Ona görə də Azərbaycan kimi ölkənin regionlarının təhlili zamanı müxtəlif regionlar arasında sosial iqtisadi qarşılıqlı təsiri nəzərdən keçirmək lazımdır. Regionun iqtisadiyyatına milli iqtisadiyyatın elementi kimi baxdıqda baş verən iqtisadi proseslərin xarakterinə regionlararası əlaqələrin təsirini nəzərə almaq vacibdir.

Nəzərə alsaq ki, bu gün müxtəlif yanaşmalar bir-biri ilə qarşılıqlı əlaqələndirmə şəklində istifadə olunur və hətta onlara region-informasiya cəmiyyətinin alt sistemi, region-azad iqtisadi zona və s. bu kimi yanaşmalar da əlavə olunur, onda sual yaranır. Regionların milli iqtisadi maraqların reallaşması zamanı prioritetlərin hansı konkret inkişaf mexanizmləri ilə təmin olunur?

Regional inkişafın müxtəlif nəzəriyyələrinə məsələn regional təkrar istehsal nəzəriyyəsi[6], "artım qütbləri" nəzəriyyəsi[7], iqtisadi özək

---

[5]Рустамбеков Г.Б. Национальные экономические интересы в процессе поссоциалистической трансформации иглобализации.Баку:Чашыоглы, 2009, стр.224.

[6]Фетисов Г.Г., Орешин В.П. Региональная экономика и управление: Учебник. — М.:ИНФРА-М, 2006, стр. 106.

[7]Самофалова Е.В., Кузьбожев Э.Н., Вертакова Ю.В. Государственное регулирование национальной экономики. Учеб. пособие. М.: КНОРУС,2008, стр. 216.

nəzəriyyəsi[8], innovasiyaların ərazi diffuziyası[9], həyat tsikli[10], yerli artım[11], kumuliativ artım [12], regionların uyğunlaşması nəzəriyyələrinə[13] baxdıqda belə bir nəticəyə gəlmək olar ki, bütün bu nəzəriyyələr regional inkişafa maddi nöqteyi-nəzərindən yanaşırlar. Müasir dünya isə qeyri maddi istehsalın inkişaf etdirməyə, yəni post industrial cəmiyyətin informasiya və ya bilik cəmiyyətinin şərtlərinə uyğun olmağa çalışır. Məhz bu ideya müasir nəzəriyyəçilər tərəfindən ölkənin qarşısında və uyğun olaraq ölkənin iqtisadi struktur hissəsi ərazi hissəsi olan regionlar qarşısında bir çox qarşıya qoyulmuş məsələlərin həlli zamanı nəzərə alınır. Əgər regionların idarə edilməsi və inkişafının metodlarına bu nəzəriyyələr və digər elmi əsərlər çərçivəsində baxsaq onları aşağıdakı kimi qruplaşdırmaq olar:

– inzibati metodlar, hansılar ki, özlüyündə normativ hüquqi təşkilati bölüşdürücü mexanizmlərə bölünür;

– birbaşa metodlar, bunlara əsasən proqram məqsəd metodları, planlaşdırma, proqnozlaşdırma, dövlət sifarişləri və nəhayət dövlət müəssisələri vasitəsi ilə dövlət sahibkarlığı mexanizmlərinin istifadəsidir;

– institusional metodlar, onlara təşkilati struktur, marketinq, benç marketinq layihə mexanizmləri aiddir;

– iqtisadi metodlar, hansılara ki büdcə vergi, maliyyə, investisiya, pul kredit, gömrük tarif mexanizmlərini aid etmək olar;

– sosial psixoloji, o cümlədən tərbiyəvi metodlar;

– informasiya kommunikasiya metodları.

**“Azərbaycan regionlarının müasir şəraitdə inkişaf potensialı”** adlanan ikinci fəsildə ölkənin davamlı inkişafını təmin etmək üçün regionların potensialının proqram məqsəd metodlarla reallaşmasına baxılır, Azərbaycanın ümummilli iqtisadi inkişaf kontekstində regional təkrar istehsal ictimailəşməsi tədqiq olunur və milli iqtisadi maraqların reallaşması nöqteyi-nəzərindən regionların sosial iqtisadi inkişafı təhlil edilir.

---

[8] Павлов К.В., Шишкин М.И. Теория экономического ядра. Ижевск: Удмуртия, 1996, с. 234.
[9] Золотухина А.В. Проблемы инновационного и устойчивого развития регионов. М.: КРАСАНД, 2010, с. 240.
[10] Гладкий Ю.Н., Чистобаев А.И. Регионоведение: учебник. М .: Гардарика, 2002, с. 133.
[11] Щедровицкий П.Г. Формула развития. Сборник статей 1987-2005 гг. М.: Архитектура-С., 2005 ,стр. 187.
[12] Dennison S. The Station of Industry and the Depressed Areas- London, 1939, p. 11.
[13] Грицай О., Трейвиш А. Центр и периферия в региональном развитии. М.: Наука, 1991, с. 364.

Azərbaycanın iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası və modernləşdirilməsi yollarının seçilməsi zamanı xarici iqtisadi amillər və istehsal-struktur potensialının bazasında uzunmüddətli inkişaf məqsədlərinin rolu böyükdür. İstənilən makroiqtisadi sistemin tətbiq olunması ilk növbədə yaranmış təkrar istehsal proporsiyalarının detallı təhlilinə ehtiyac duyur. Bu proporsiyaların təyini, saxlanılması və dəyişdirilməsi uzunmüddətli vaxt intervalını əks etdirir, xüsusi ilə də formasiyalararası şərtlərdə. Bu mürəkkəb proses olmaqla xalq təsərrüfatında proporsiyaların çoxluğu ilə şərtlənməklə təbii ekoloji şəraitdə elmi texniki proqresdə istehsalın inkişafı potensialı və istehlakın strukturunun dəyişdirilməsi kimi amillərdən asılıdır. Onu da nəzərə almaq lazımdır ki, proporsiyalar özlüyündə dinamikdir və dövlətin müdaxilə dərəcəsindən asılı olaraq iqtisadi inkişafın gedişatında həm kəmiyyətcə həm də keyfiyyətcə dəyişə bilər. Müasir rəqabət şəraitində istehsalın texniki səviyyəsinə tələblər artır, elm tutumlu sahələr çoxalır, kənd təsərrüfatı ilə sahədə sənayenin kəskin artması baş verir. Eyni zamanda xidmət sferalarının çəkisi maddi istehsal sahələri ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksəlir. Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı, xarici ticarət dövriyyəsinin intensivləşməsinə dəlalət edir. Belə şəraitdə iqtisadiyyatın sahə-struktur və ərazi balanssızlığı iqtisadi, sosial, demoqrafik, ekoloji cəhətdən ciddi neqativ nəticələrə gətirə bilər. Bu baxımdan ölkənin regionlarının kompleks və qarşılıqlı əlaqəli inkişafı vacib əhəmiyyət kəsb edir.

1991-1995-ci illərdə, keçmiş ittifaq respublikaları arasında istehsal-kooperativ əlaqələrinin qırılması on illiklərlə formalaşan istehsalın kəskin azalmasına bir çox müəssisələrin işinin məhdudlaşdırılmasına və ya tamamilə dayandırılmasına gətirdi. Bütün bunlar ölkədə sosial vəziyyətin gərginləşməsinə, regionlar arasında əhali miqrasiyasına səbəb oldu, regionların sosial iqtisadi göstəriciləri üzrə fərqlərin artması baş verdi. İnsanlar zəif inkişaf etmiş və depressiv regionlarda o zaman üçün daha əlverişli regionlara və hətta xaricə köçməyə başladı. Bəzi rayonlarda depopulasiya müşahidə olunduğu halda şəhərlərdə əhali artıqlığı yarandı. Problemə həmdə bir milyondan artıq qaçqın və köçkün, hərbi əməliyyatlar edən rayonlardan köçməsi ağırlaşdırdı.

Qeyd etməliyik ki, 1996-cı ildən 2000-ci ilə olan dövrə iqtisadi inkişafın ikinci mərhələsində ölkədə iqtisadi vəziyyətin tənzimlənməsi üzrə ciddi tədbirlər həyata keçirilmişdir. Keçid dövrünün ilk illərinin neqativ nəticələrinin aradan qaldırılması üçün və ölkə iqtisadiyyatının bazar

transformasiyasının təmin edilməsi, iqtisadiyyatın dayanıqlı vəziyyətə gətirilməsi üçün dövlət əhəmiyyətli bir sıra proqramlar işlənmiş və qəbul edilmişdir. ÜDM dəyər ifadəsində kəskin yüksəlməsinə əlbəttə dünya bazarında neftin qiymətinin əlverişli konyunkturu da təsir etmişdi. O, həm də ölkənin maliyyə-büdcə imkanlarının artmasına, investisiyaların çoxalmasına və iqtisadiyyatın bir sıra sahələrinin canlanmasına və strateji inkişaf proqramların həyata keçirilməsinə dəlalət etdi.

2001-2008-ci illər inkişafın üçüncü mərhələsi olmaqla bir çox normativ-hüquqi aktların, o cümlədən regional inkişaf proqramları əsasında iqtisadi fəaliyyətin və idarəetmənin institusional mexanizmləri həm makroiqtisadi səviyyədə, həm də regional səviyyədə təkmilləşdirilmişdir.

Nəzərdən keçirdiyimiz 2009-cu ildən indiyə qədərki dövr inkişafın dördüncü mərhələsində önəmli institusional dəyişikliklər aparılmış, qeyri neft sektorunun inkişaf etdirilməsi, regional aspektə üstünlüyün verilməsi prioritet seçilərək milli iqtisadiyyatın innovativ inkişafına keçid həyata keçirilmişdir.

Əgər Azərbaycanın regionlarının hazırkı iqtisadi vəziyyətini qiymətləndirsək, onda şərti olaraq onları aşağıdakı kateqoriyalar üzrə bölmək olar:

a) *inkişaf etmiş regionlar*, bunlara Abşeron, Aran, Gəncə-Qazax və Naxçıvan iqtisadi rayonlarını göstərmək olar;

b) *inkişafda olan regionlar*, bunlara Quba-Xaçmaz iqtisadi rayonunu;

c) *zəif inkişaf etmiş regionlar* – Lənkəran, Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonları;

ç) *depressiv regionlar* – Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarını aid etmək olar. Ona görə də regional inkişafla bağlı dövlət proqramlarında bu rayonların hər birində diferensial yanaşılaraq ixtisaslaşmasının xüsusiyyətləri və dövlət, sahibkarlıq səyləri nəticəsində regionlararası vəziyyətin bərabərləşdirilməsi imkanları nəzərə alınır. Bunun nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalın ümumi həcminin artmasında yerlərdə emal sahələrinin infrastruktur və sosial obyektlərin inkişafı, kənd əhalilərinin gəlirlərini və məşğulluq səviyyəsinin əhəmiyyətli artımı müşahidə olunur.

Regional inkişafın birinci proqramında (2004-2008-ci illər üzrə) istehsal qüvvələrinin ixtisaslaşdırılmasının optimallaşdırılması və ərazi üzrə yerləşdirilməsi üçün kompleks tədqiqatlar aparılmışdır. Bunun əsasında 714 dövlət tədbiri həyata keçirilmişdir ki, onun da 668-i Azərbaycan Respublikasının 9 iqtisadi rayonun sosial iqtisadi inkişafına yönəldilmiş,

vacib infrastruktur layihələrinə vəsaitlər ayırmışdır. Tədbirlərin reallaşması nəticəsində ərazi inkişafında zəruri proporsiyalara nail olunmuş regionlarda qeyri neft sektorunun inkişafı üzrə layihələr paketi formalaşdırılmışdır. Bu dövr üzrə Azərbaycanın regionlarında 26641 yeni müəssisə, 766300 yeni iş yerləri, o cümlədən 547600 daimi iş yerləri açılmışdır.

İkinci proqramın həyata keçirilməsi prosesində (2009-2013-cü illər üzrə) ölkənin aqrar sektorunun geniş miqyaslı inkişafı, regionların istehsal, sosial və bazar infrastrukturları inkişafına başlanılmış, milli iqtisadiyyatın konkret ərazi strukturlarında işsizlik aradan qaldırılmışdır. Bu dövrdə 1066 iri miqyaslı layihə işləri aparılmışdır ki, onlarında 968-i iqtisadi rayonları, 40-ı isə Bakı şəhəri və onun ətrafına aid edilmişdir.

Regionların inkişafının 3-cü proqramı 2014-2018-ci illəri əhatə etməklə regionların iqtisadiyyatının diversifikasiyasını, ixrac yönlü və rəqabət qabiliyyətli məhsul istehsalının və sahibkarlığın inkişafının sürətlənməsini, yoxsulluq səviyyəsinin azaldılması və region əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsini, kəndlərdə infrastruktur və xidmət keyfiyyətinin yaxşılaşdırılmasını nəzərdə tutur.

Baxmayaraq ki, regional inkişaf proqramları Azərbaycanda razılaşdırılaraq mərhələli həyata keçirilir, onların verifikasiya (yoxlanılmasına) və korrektə edilməsi tələbi var. Bu məqsədlə hər il ən yüksək dövlət səviyyəsində həyata keçirilmiş prosesin nəticələri təhlil edilir.

Proqramların reallaşdırılması milli iqtisadi sistemin elementi kimi regionların əhəmiyyətini artırır. Ölkənin sosial iqtisadi inkişafının hazırkı mərhələsində məhz regionlar prioritet mövqeni qoruyub saxlayır. Son 9 ildə ölkə iqtisadiyyatı 3 dəfədən çox artmışdır. Sənaye istehsalı bu illər ərzində 3 dəfə artmış, ölkə iqtisadiyyatının 130 mlrd. dollara qədər vəsait qoyulmuşdur [14]. Regionların inkişafı üzrə göstəricilər ölkənin dayanıqlı və çoxsahəli təsərrüfat proqresində regionların rolunu təsdiq edir.

2008-ci ildən bu günə qədər davam edən iqtisadi əsasən də maliyyə böhranı əksər inkişaf etmiş ölkələrin iqtisadiyyatlarını iflic etsə də iqtisadi problemləri və onların idarə edilməsinə yeni yanaşma üçün impuls oldu. Sabitləşmə tədbirlərinin təkmilləşdirilməsi üçüncü minilliyin tələbləri əsasında müxtəlif istiqamətli sosial iqtisadi inkişaf proqramlarının təsdiq edilməsi milli maraqların reallaşmasında regionların roluna yenidən baxmağa vadar etdi. Bu gün "regionların təbii iqlim, istehsal, sahibkarlıq

---

[14]http://1news.az/chronicle/20130213121327223.html.

imkanlarının ictimailəşdirilməsi regionlara istehsalın "artım mərkəzi" olmasına prioritet verməklə iqtisadi inkişaf modelinin əsasını təşkil edir".[15] Böhranın olmasına baxmayaraq ölkəmiz inkişafa doğru irəliləyir və ÜDM-in artım tempini nəinki qoruyub saxlamağa hətta yüksəltməyə çalışır. Bu zaman regionlar üzrə orta aylıq əmək haqqı səviyyəsi durmadan artmışdır və nəticədə ödəniş qabiliyyətli tələbin artması əsasında iqtisadiyyatın artımı stimullaşmışdır. Təhlil göstərir ki, ən yüksək nominal əmək haqqı səviyyəsi 2003-2011-ci illər üzrə Bakı şəhərinə deyil Naxçıvanın (8,8 dəfə), Lənkəranın (7 dəfə), Şəki-Zaqatalanın (6,9 dəfə), Gəncə-Qazaxın (6,6 dəfə) və s. payına düşür[16]. Beləliklə biz sosial müdafiə üzrə aşağıda göstərilən nəticələr əldə etmişik və hesab edirik ki :

−əhalinin ünvanlı sosial müdafiəsinə nəzarəti artırmaq zəruridir, yəni sosial köməyin yalnız ona həqiqətən ehtiyacı olan qruplara yönəldilməlidir. Bunun üçün isə hər bir ailənin orta gəlirini üzə çıxarmaq sosial müavinət və güzəştlərə həqiqətən ehtiyacı olan ailələri müəyyən etmək və bunun üçün gəlirlərin bəyannaməl əşməsi prosesini sürətləndirmək zəruridir;

−maliyyə fondlarının məqsədyönlü istifadə edilməsi zəruridir. Maliyyə resurslarının imkan olduğu qədər səmərəli istifadə etmək və ehtiyac olan sosial sahələrə istiqamətləndirmək. Regionlarda sosial infrastrukturun inkişafı üçün çoxsaylı xarici maliyyə təşkilatlarını cəlb etməyə çalışmaq lazımdır;

−sosial müdafiə üzrə dövlət proqramlarının yerinə yetirilməsinə xüsusi nəzarət mexanizmlərini işləyib hazırlamaq və bu proqramların reallaşması zamanı resursların rasional istifadəsinə nəzarət etmək zəruridir. Dövlət öz vətəndaşlarının qayğısına qalaraq hər il sosial köməklik üçün vəsait ayırır. 2012-ci ildə 123 000 ailə dövlətdən 117 manat həcmində müavinət kimi sosial kömək almışdır. Azərbaycan Respublikasının əhalisinin sosial müdafiə sistemini təkmil olması üçün ölkədə aparılan islahatlarla yanaşı xarici ölkələrin təcrübəsində istifadə etməliyik ki, bu bizə inkişaf etmiş ölkələr siyahısına qatılmağa kömək edəcək.

**"Azərbaycan iqtisadiyyatının regional inkişafına əsas istiqamətləri və perspektivləri"** adlanan üçüncü fəsildə milli maraqların təyini üzrə regional inkişafın təşkil edilməsinə sistemli yanaşılmış, regionlardan təsərrüfat klasterlərinin inkişafının perspektiv istiqamətləri müəyyən

---

[15]Рустамбеков Г.Б. Национальные экономические интересы в процессе поссоциалистической трансформации иглобализации.Баку: Чашыоглы, 2009, стр. 226.
[16]http://www.stat.gov.az.

edilmiş və milli iqtisadiyyatın struktur modernləşdirilməsi kontekstində regionların innovativ inkişafına baxılmışdır.

Dövlət səviyyəsində regionların inkişafının təşkilinə sistemli yanaşma hakimiyyətə ölkənin inkişafında regionların rolunu dəqiq müəyyən etməyə imkan verir və bu istiqamətdə olan fəaliyyət nəticəli və məsuliyyətli olma xarakterini alır, eyni zamanda regiona cəmiyyətin, hakimiyyətin və biznesin qarşılıqlı fəaliyyəti və konsolidasiyasının bilavasitə iştirakçısına çevirir. Ona görə strateji idarəetmə və bu istiqamətdə sistemli yanaşma davamlı və dinamik inkişafa əsaslanaraq vahid sosial iqtisadi sistemi formalaşdırmağa tələb edir ki, bu da milli iqtisadiyyatın suverenliyini və müstəqilliyini, təbii iqtisadi potensialın qənaətli və rasional istifadəsini, elmi-texniki və texniki istehsal bazasının modernləşdirilməsini rəqabət qabiliyyətli və müxtəlif təhlükələrdən müdafiə olunan milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasını təmin edilməsini nəzərdə tutur.

Maraqları uzlaşdırmaq çox vaxt problematik olur, subyekt daxilində isə (maraqları daşıyan) bu bəzən hətta yerinə yetirilməz məsələyə çevrilir. Bir tərəfdən inzibatçılığın fəaliyyət göstərməsinin obyektiv şərtləri, digər tərəfdən isə regionda sosial iqtisadi vəziyyət, əhalinin həyat səviyyəsi, sahibkarların maraqları kimi subyektiv amillər problemi daha da dərinləşdirir.

Real həyatda kompromisə nail olma çətindir və bu regionla dövlətin daxili və xarici maraqlarının eyni vaxtda həm müxtəlif və bəzən ziddiyyətli olması ilə bağlıdır. Maraqlı amillərdən biri odur ki, bu gün belə maraqların fərqliliyi normal hal hesab olunur. Həmçinin qeyd etmək lazımdır ki, ziddiyyətlərdən bilindiyi kimi sistemin inkişafı törəyir, lakin maraqların ziddiyyəti müxtəlif fəaliyyət sferalarında mövcuddur. Bir tərəfdən regionlar mərkəzin siyasətini həyata keçirməklə dövlət büdcəsi üçün yığılan vergilər vasitəsi ilə dövləti maliyyə ilə təmin edir, digər tərəfdən sosial iqtisadi inkişaf üçün büdcə vasitəsi ilə mərkəzdən transfertlər (datasiyalar) alır. Fizkal siyasətdə mərkəzlə region arasında ziddiyyət belə görünür. Lakin monitar siyasətdə onlar ilk növbədə üst-üstə düşür və bu əsasən gəlirlərin artırılmasında istifadə üçün maliyyə resurslarının alınmasında özünü göstərir, məsələn, subsidiyaların alınmasında və alınan məbləğin həcmi onların qaytarılmasına gəldikdə isə maraqlar ziddiyyətli olur. Bu səbəbdən maraqların uzlaşdırılması şərti və müvəqqəti ola bilir və konkret desək yalnız hər hansı meyar üzrə mümkün olur. Beləliklə belə nəticəyə gəlmək olar ki, qrup iqtisadi maraqlar daimi olmayıb dəyişə bilər və üst-üstə düşməyə, müxtəlif istiqamətdə ola bilər. Ona görə regional inkişafın təşkili

sistemli yanaşma milli maraqların təmini zəminində aşağıdakı mərhələlər üzrə həyata keçirilə bilər:

Regional inkişafın təşkilinin ilkin mərhələsində son məqsəd müəyyən edilir. İkinci mərhələ ssenari variantlarının təhlili və yaxud təhlil əsasında alternativlərin qiymətləndirilməsi ola bilir. Növbəti və son mərhələ konseptual əsasların nəzərə alınmasıdır, yəni regionların inkişafını və dövlət strategiyasının işlənib hazırlanması, seçilməsi və həyata keçirilməsi prosesi fasiləsiz olub ölkənin iqtisadi siyasətinin dəyişməsi ilə korrektə edilə bilər. Ona görə tam sistem kimi regionların inkişafının təşkili zamanı regionun sənaye istehsal sistemi, infrastrukturu, aqrosənaye kompleksləri, sosial sferası, maliyyə vəziyyəti və rayonların büdcələri dövlət büdcəsindən datasiyaların səviyyəsi, investisiya cəlbediciliyi və nəhayət idarəetmə sferası və onun həcmi kimi makroiqtisadi alt sistemlərin qarşılıqlı əlaqəsinə baxılır. Kifayət qədər yaxın ərazidə yerləşərək daim qarşılıqlı əlaqədə olub bir-birindən müxtəlif istiqamətli, lakin bir-birindən asılı olaraq qarşılıqlı fəaliyyət göstərən müxtəlif firmalar ərazini kompleks və sistemli inkişafına köməklik edir. Daxilində bir elementin (firmanın, təşkilatın, müəssisənin və s.-nin) digərinin fəaliyyətini tamamlayan klasterlər maliyyə qrupları kimi Azərbaycan regionlarının davamlı və uzunmüddətli inkişafı üçün zəruridirlər. Ölkənin davamlı inkişafı üçün ölkəmizdə klasterlərin formalaşdırılması zamanı yeni avadanlıq və texnologiyaların tətbiqinə diqqət artırılmalı, ərazi aspekti (coğrafi və təbii iqlim xüsusiyyətləri), resurs sarıdan regionların özünəməxsusluğu nəzərə almalı və onların uzunmüddətli dövrə fəaliyyətinin səmərəliliyi qiymətləndirməlidir. İlk növbədə milli maraqlar və təhlükəsizlik nöqteyi-nəzərindən klasterlərin optimal yerləşməsini müəyyən etmək, normativ hüquqi bazasını formalaşdırmaq zəruridir, həmçinin regionların maraqlarını, onların sosial iqtisadi istiqamətlərini ixtisaslaşmasını nəzərə almaq lazımdır. Klasterlərin optimal yerləşdirilməsi eyni zamanda regionların uzun müddətli inkişafını təmin edir və milli sosial-iqtisadi problemləri həll edirsə onda maşınqayırma və cihazqayırma, kimya sənayesi və Abşeron, Gəncə-Qazax iqtisadi rayonları üçün xarakterik olan ənənəvi sahələr onların ərazilərində klasterlərin yerləşməsini təmin edən bilər. Yüksək inkişaf etmiş maşınqayırma, energetika və kimya sənayesi, infrastrukturu, yüksək istehlak bazarı, elmi təhsil sistemi, kadr potensialı ilə seçilən Bakı, Sumqayıt, Gəncə şəhərlərində klasterlərin formalaşdırılması digər regionlara nisbətən daha asan olar. Lakin ölkənin maraqlarındadır ki, regional inkişaf hərtərəfli olsun və ona görə də klasterlərin formalaşması

təkcə bu şəhərlərdə deyil ölkənin bütün regionlarında həyata keçirilməsi bu vəzifəni təmin edə bilər. Güclü kompaniyalar klasterin özəyini təşkil etməklə özünə oxşar çoxlu kiçik və orta kompaniyalar birləşdirir ki, bununla da müəyyən ərazidə rəqabət qabiliyyətliliyi saxlayır. Bir çox elmi yanaşmaları, xarici və yerli, iqtisadçı alimlərin təkliflərini təhlil etdikdən sonra biz bu qənaətə gəldik ki, bir çox ölkələrin təcrübəsini nəzərə almaqla Azərbaycan ərazisində tərkibinə aşağıdakı əsas firmalar daxil olan «meqaklasterlər» formalaşdırmaq zəruridir: maşınqayırma üzrə və (və ya) avadanlıq və texnikanın yığılması, kimya və energetika sənayesi, aqrar sənaye kompleksi, kənd təsərrüfatı, tikinti quraşdırma sektoru, nəqliyyat sahəsi, turizm və səhiyyə, kommersiya və bank xidmətləri, innovasiya və kütləvi informasiya vasitələri üzrə firmalar olmalıdır. Lakin klasterlərin formalaşmasının əsas prinsipi və regionun rəqabət qabiliyyətliliyinə onların təsiri regionun özünün baza potensialının olmasını da təsdiqləyir.

Bu faktı da nəzərə almaq lazımdır ki, regionlarda innovasiya fəaliyyəti innovativ, aktiv ərazilərin yaradılmasını innovasiyaların yayılması və bazar tətbiqi regional mərkəzlərinin və nəhayət regional elmi istehsalat birliklərinin köməyi ilə mümkündür. Bu istiqamətdə həyata keçirilmiş tədbirlər artıq öz bəhrəsini verir. Belə ki, Sumqayıt şəhərində yaradılmış texnopark regional inkişaf proqramı çərçivəsində Gəncə, Mingəçevir və Naxçıvan şəhərlərində yaradılmış elmi istehsalat birlikləri müsbət nümunələrdir. Texnopark-texnopolis və elm şəhərlərinin yaradılması təşkilati formanın alt növü kimi innovasiya baxımdan aktiv regionlar tədqiqatların, işləmələrin, elm tutumlu məhsulların seriyalı buraxılışı yüksək texnologiyaların istifadəsinə və gələcəkdə tirajlanmasına (çoxlu sayda istehsal olunmasına) və ölkə ərazisi üzrə paylanmasına köməklik göstərə bilər. Bu istiqamətdə təhlil edilmiş iqtisadi ədəbiyyat və tədqiqat göstərir ki, yeni proqressiv məhsulun istehsalı və yaxud yeni elm tutumlu texnologiyaların işlənib hazırlanması üçün yaranan texnopolislər texnoparklardan fərqlənməklə xidmət sferasının inkişaf etmiş infrastrukturlu elmi istehsal kompleksləridir. Məhz xidmət sferaları ərazilər üçün aktual olub reallaşma zamanı isə kadr çatışmazlığı problemi ilə rastlaşır. Ona görə innovasiyaların yayılmasının regional mərkəz və strukturlarının yaradılması regionda innovasiya fəaliyyətinin təşkilati forması olmaqla regionların innovativ sıçrayış strategiyasının reallaşmasında ikinci addım olmalıdır. Son illər innovasiyaların cəmiyyətdə rolunun artması görsənsə də, regionlarda innovasiyaların inkişafına maneələr qalmaqdadır. Bunlara aiddir:

–innovasiya və yeniliklərin dəyərinin yüksək olması, onlara qoyulan vəsaitlərinin geri qazanılması, tətbiqindən sonra ekoloji və iqtisadi proseslərin vaxtının qeyri-müəyyən olması;

–riskin yüksək olması səbəbindən maliyyə aktivliyinin aşağı olması və maliyyə çatışmazlığı, bir sıra layihələrin maliyyələşdirilməməsi;

–normativ-hüquqi bazanın çatışmazlığı və ya olmaması, stimullaşdırıcı, reqlamentləşdirici sənədlərin təkmil olmaması, innovasiya sferasında dəyişən şəraitə uyğun olaraq hüquqi bazanın təkmilləşdirilməsində sürətin və uyğunlaşmanın olmaması;

–informasiya çatışmazlığı və onun nəticəsi kimi xarici effektlərin və risklərin nəzərə alınmaması;

–bir tərəfdən stereotip və mentalitetlə, konservatizmlə bağlı qəbuledilməzlik, digər tərəfdən maliyyə çatışmazlığı, ehtiyatlılıq və səmərəni anlamamaq;

–inkişaf etmiş bazar və xidmət servisi infrastrukturunun, əmtəələrin irəliləməsi, texniki-tətbiqetmə zonalarının olmaması.

Yaxın bir neçə il üçün bu amillərin aradan qaldırılması və regionların innovasion inkişaf etdirilməsi əsas prioritetlərdəndir. Ona görə hər iqtisadi rayon üçün innovasion inkişaf modelini işləyib hazırlamaq lazımdır. Bu model regionların inkişafının strateji planı və forsaytı (bunlar uzun müddətli proqnozlardan fərqli olaraq daha dəqiq istiqamətlərə malikdirlər), innovasiya fəaliyyətinin təkmilləşdirilməsi mexanizmlərini, regionun iqtisadi və institusional strukturunu, iqtisadi və elmi-texniki potensialın səmərəli istifadəsini, nəhayət, milli sərvətin struktutunun dəyişməsini – insan kapitalının rolunun artırılması göstəricisini əks etdirməlidir. Dissertasiyanın əsas məzmunu aşağıda dərc olunmuş tezis və məqalələrdə əksini tapmışdır:

1. Regionun sabit sosial-iqtisadi inkişafının optimal modeli / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti "Azərbaycan Respublikasının İqtisadi Siyasəti: Nailiyyətlər və perspektivlər" mövzusunda keçirilmiş elmi-praktik konfransın materialları. Bakı, 2012, s. 339-342.

2. Yeni minilliyin obyektiv tələbi kimi sabit inkişafının konseptuallaşması / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi "Qloballaşma Mühitində İqtisadi Təhlükəsizliyin Təmin Olunmasında Gömrük Tənzimlənməsinin Rolu" mövzusunda keçirilmiş beynəlxalq elmi-

praktiki konfransın materialları. Bakı, 2012, s. 560-568.

3. Ərazilərin inkişaf prinsipləri və regional siyasətin məqsədləri // Bakı Universitetinin Xəbərləri. Sosial-Siyasi Elmlər Seriyası, 2013, №1, s.60-68.

4. Milli iqtisadi maraqların reallaşdırılması strategiyasında regionların sosial-iqtisadi inkişafı / Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi. Əmək və Sosial Problemlər Elmi Əsərlər Toplusu. Bakı, 2013, №1(12), s. 126-132.

5. Region – milli iqtisadi sistemin elementi kimi // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi Əsərlər Toplusu, 2013, №2, s. 208-214.

6. İqtisadi inkişaf mexanizmində regional prioritetlər milli iqtisadi maraqların reallaşdırılması kimi // Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri, "Elmi-nəzəri jurnal", Bakı, 2013, №1, s. 120-124.

7. Роль программно-целевых методов управления в реализации потенциала регионов Азербайджана // Научная мысль Кавказа. Научный и общественно-теоретический журнал. Северо-кавказский научный центр высшей школы Южного федерального университета, Ростов-на-Дону, 2013, №3(75), s.72-77.

8. Организация регионального развития с учетом национальных интересов // Вестник Экономической Интеграции. Научно-Практический Журнал. Москва, 2013, №11(68), s. 99-103.

9. Кластеризация как перспективное направление развития регионов // Инвестиции. Науково-практический журнал, Украина, 2014, №1, s.104-107.

10. Инновационное развитие регионов в контексте структурной модернизации национальной экономики / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. "Geoiqtisadiyyat və Geosiyasətin Qarşılıqlı Təsiri" mövzusunda respublika səviyyəli elmi-praktiki konfransın materialları. Bakı, 2014, s.12-16.

11. Target Program Methods of Regulating Regional Development in order to Ensure Sustainable Development of the Country / Научная дискуссия: Вопросы Экономики и управления. Сборник статей по материалам XXVI международной заочной научно-практической конференции. Москва, 2014, №5(26), s.160-163.

12. Региональное воспроизводственное обобществление в

контексте общенационального экономического развития Азербайджана // “Beynəlxalq hüquq və inteqrasiya problemləri” elmi-analitik və praktiki jurnalı. Bakı, 2014, №4(40), s. 441-450.

**Наджиба Габиль кызы Гаджиева**

# РЕГИОНАЛЬНОЕ РАЗВИТИЕ И РЕАЛИЗАЦИЯ НАЦИОНАЛЬНЫХ ЭКОНОМИЧЕСКИХ ИНТЕРЕСОВ АЗЕРБАЙДЖАНА

## Резюме

Диссертация состоит из введения, трех глав, выводов, предложений и списка использованной литературы. Во введении обосновывается актуальность выбранной темы, степень изученности проблемы, цель и задачи, объект и предмет исследования, теоретико-методологические основы, научная новизна, теоретическая и практическая значимость.

В первой главе, которая носит название “Теоретико-методологические основы исследования регионального развития” рассматриваются принципы территориального развития и региональной политики, изучена роль региона как элемента национальной экономической системы, применены региональные приоритеты в механизме реализации национальных экономических интересов.

Во второй главе – “Потенциал развития регионов Азербайджана в современных условиях” исследуются вопросы програмные целевые методы реализации потенциала регионов для обеспечения стабильного развития страны, применяется региональное воспроизводственное обобществление в контексте общенационального экономического развития Азербайджана и анализируется социально-экономическое развитие регионов с точки зрения реализации национальных экономических интересов.

В третьей главе – “Основные направления и перспективы регионального развития экономики Азербайджана” системно подойдено к организации регионального развития для определения национальных интересов, определены перспективные направления развития региональных хозяйственных кластеров и рассмотрено инновативное развитие регионов в контексте структурной модернизации национальной экономики.

В соответствии с выше сказанным, в заключительной части диссертации обобщены выводы исследования, представлены предложения и рекомендации имеющие определенную научно-теоретическую значимость.

**Nadjiba Qabil gizi Hajiyeva**

# REGIONAL DEVELOPMENT IN AZERBAIJAN AND REALIZATION OF NATIONAL ECONOMIC INTERESTS

## Summary

This thesis consists from introduction, three heads, conclusions and offers, the list of the used literature.

In the introduction the actuality of the topic of the dissertation is based, the degree of studied of problem is characterized, a purpose and tasks is put, the scientific of research open up, practical mean full is shown.

First chapter, which is called the “Theoretical and methodological foundations of the regional development study” describes the principles of territorial development and regional policy, studies the region's role as part of the national economic system, and applies regional priorities in the mechanism of the national economic interests’ realization.

The second chapter – “The development potential of the Azerbaijan regions in modern circumstances” portrays researched issues of goal-oriented methods of the regions’ potentials realization to ensure sustainable development of the country, applies regional reproductive socialization in the context of the Azerbaijan national economic development and analyzes the socio-economic development of regions in terms of the realization of national economic interests.

The third chapter of the research – “Main directions and prospects of the regional development of the Azerbaijan economy” systematically approaches to the organization of regional development to define national interests, determines perspective directions of the regional economic clusters’ development and considers an innovative development of the regions in the context of the structural modernization of the national economy.

Based on the above, in a final part of work the author of the thesis the research results can be summarized in the by conclusions and offers were put forward in scientific and theoretical importance received as a result of the conducted research are given.

Çapa imzalanmışdır: 30.09.2015
Formatı: 60/84, 16/1
Sifariş: 82
Sayı: 100

*AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir*

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

***Əlyazması hüququnda***

**NƏCİBƏ QABİL qızı HACIYEVA**

# AZƏRBAYCANDA REGİONAL İNKİŞAF VƏ MİLLİ İQTİSADİ MƏNAFELƏRİN REALLAŞDIRILMASI

**İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2015**